

**Firuzə Rəhmətova**

## Zəynəbə

Atabeki axtarırsan hələ,
Mərgilanin küçələrindən.
Ürəyinə köçüyor şüphə,
“Ötən günlər” gecələrindən.

Ürəyini tiğlayan da o,
Gümüşüm, deyə ağlayan da o,
Arzularin təmiz paltarın,
Ərmanlara bürüyən də o

Yetər bunca göz yaşlarınız,
Parlasın bəxt günəşləriniz,
“Ötən günlər” qətində qalsın,
Acı acı göz yaşlarınız.

## İltica

Tanrım, mənə bəxt ver o qədər,
Xoşbəxtliyim heç vaxt bitməsin.
Və tale ver parlak gün kimi,
Qəlbimə qaranlıq dolmasin.

Muhabbət ver, yanan duyğular,
Ay, günəşdən olsun ziyadə.
Billür sübh kimi təmiz arzular,
Həyatımda tapsın ifadə.

Gülümsə ver bulaq kimi aydın,
Muhtac etmə saxta gülüşə.
Gəmirməsin ürəyi ahlar,
Yer olmasin qəlbdə kədərə.

Huzur ver həvəsə layiq,
Məsrur yaşayım bir bəxtdən.
Hiç ayırma məni, Allahım,
Şirin arzu, ümid və əhddən!

---

Tərcümə etdi: Rəhmət Bababcan

Türküstan.- 2022.- 24-30 may.- S.12.